

KAMAL ABDULLAYEV,
Slavyan Universitetinin rektoru

## HEYDƏR ƏLİYEV VƏ MİLLİ MƏNƏVİ DƏYƏRLƏR

**Müstəqil Azərbaycan Respublikasının qurucusu möhtərəm Prezidentimiz Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi otuz ildən artıq dövr xalqımızın çoxəsrlik tarixində müstəsna əhəmiyyəti olan milli dirçəliş mərhələsidir. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü, əqidə və fəaliyytində aşkarlanan əzəmət bütün xalqımızı həm siyasi rəhbər, həm də milli lider kimi onun ideallari ətrafında birləşdirdi, milli özünüdərkə təkan verdi.**

60-cı illərin sonu 70-ci illərin əvvəllərində Heydər Əliyevin rəhbərliyi altında respublikamızda geniş və çoxşaxəli quruculuq işləri, iqtisadi, ictimai, mədəni inkişaf başladı. Həmin dövrdə dövlət rəhbərimiz Heydər Əliyev mövcud siyasi quruluşun imkan verdiyi, çox zaman böyük çətinliklə, güclü iradə, əzm, cəsarət hesabına əldə edilən bütün imkanlardan istifadə edərək respublikamızın tərəqqisinə, mədəniyyətimizin inkişafına, dil, mənəviyyat, bütövlükdə milli mənliyin qorunmasına çalışırdı. Böyük nailiyyətlər xalqımızda milli qürur və inam oyadır, Vətən təəssübkeşliyi, vətəndaş məsuliyyəti artırdı. Ölkə rəhbəri kimi fəaliyytə başladığı ilk günlərdən Heydər Əliyevin irəli sürdüyü, daim nəzarətdə saxladığı və həyata keçirdiyi əsas məsələ respublikada mənəvi mühitin sağlamlığı, milli dəyərlərin qorunması, ana dili, ədəbiyyat, mədəniyyətə qayğı olmuşdur.

Heydər Əliyevin böyük qətiyyətlə ictimai həyatımızdakı neqativ hallara qarşı apardığı mübarizə ilk növbədə milli əxlaq, mənəviyyatın dirçəlməsinə imkan verdi. İdarəçilik, təhsil, səhiyyə və s. sahələrdə ciddi islahatlar aparıldı. «Qoy ədalət zəfər çalsın!» adi şüar deyil, fəaliyyət prinsipinə çevrildi. Xalq siyasi rəhbərdə milli-tarixi missiyanı daşımaq əzmində və qüdrətində olan milli liderini gördü.

Bütün bunlar qısa bir müddətdə öz bəhrəsini verdi – xalqın daxili potensialı, yaradıcı imkanları parlaq şəkildə üzə çıxdı. 70-80-ci illərdə ədəbiyyat, musiqi, rəngkarlıq, heykəltaraşlıq, kino və teatr sənəti, memarlıq, eləcə də təhsil, elm, mətbuat və s. kimi sahələrdə sözün həqiqi mənasında intibah baş verdi. Xalqımız özlüyünü dərk etdi və eyni zamanda dünyada tanındı. Milli təfəkkürü, əxlaqı, mənəviyyatı olan kadrlar formalaşdırıldı.

Həmin illərdə Heydər Əliyevin dönməz iradəsi, əzm və cəsarəti sayəsində milli dilimiz dövlət dili kimi rəsmən təsbiti edildi, mötəbər məclislərdə səsləndi, dilçilik araşdırmaları vüsətləndi, təhsil müəssisələrində Azərbaycan dilinin tədrisi yeni səviyyəyə qaldırıldı.



Milli ənənənin daşıyıcısı olan folklorun toplanması, tədqiqində xüsusən klassik epik abidəmiz «Kitabi-Dədə Qorqud»un öyrənilməsində mühüm işlər görüldü.

Bütün bunlar milli mənlik şüurunu, müstəqillik hissini oyadaraq, əslində 80-ci illərin sonu 90-cı illərin əvvəllərindəki xalq hərəkatını yetişdirən əsas amillərdən oldu.

Təəssüf ki, müstəqilliyin ilk illərində xalqın ideallarını həyata keçirmək qabiliyyəti olan lider olmadığından ümumi hərc-mərclik baş aldı və ilk növbədə mənəviyyata böyük zərər dəydi. Dilimizin adı süni olaraq dəyişdirildi, milli münasibətlərdə anlaşılmaz siyasət aparıldı, saxta vətənpərvərlik ölkəmizi dünya dövlətlərindən təcrid etdi, ziyalı kütləsi dövlət əhəmiyyətli proseslərdən kənarlaşdırıldı. Ölkə vətəndaş müharibəsi həddinə çatdı. Belə bir mürəkkəb şəraitdə xalqın tələbi ilə Heydər Əliyevin yenidən dövlət rəhbərliyinə çatdırılması ilə hərc-mərcliyə son qoyuldu, həqiqi dövlət quruculuğu başlandı. Hələ 1990-cı il 20 Yanvar faciəsi ilə bağlı bəyanatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi fəaliyyəti ilə Heydər Əliyev milli əxlaq və mənəviyyat, həqiqi vətənpərvərlik nümunəsi vermiş, yeganə siyasi xadim olaraq milli iradəni ifadə etmişdi. Milli birlik, dünya azərbaycanlılarının vəhdəti ideyası onun sədrliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 1991-ci il 16 dekabrında hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının həmrə'ylik günü kimi qeyd edilməsi haqqında qərarında təsbit olundu. 1993-cü ildə, yenə də Heydər Əliyevin təşəbbüsü ilə respublika səviyyəsində qeyd olunmağa başladı.

1993-cü ildən sonra milli-mənəvi dəyərlərin qorunmasında yeni məsələlər ortaya çıxdı. Müstəqil Azərbaycanın dünya dövlətləri ilə birbaşa əlaqələrinin qurulması, neft layihələri nəticəsində xarici investisiyaların artması, informasiya bolluğu, qolballaşma prosesi müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın milli-mənəvi özünəməxsusluğunu, mədəniyyətini qorumaq və inkişaf etdirmək üçün bir qədər fərqli və əslində mürəkkəb şərait yaratdı.

Heydər Əliyev tarixi uzaqgörənlik və müdrikliklə ana dili, dilimizin adı məsələsini mütəxəssislərin və xalqın müzakirəsinə çıxartdı. Milli dəyərlərin əsas daşıyıcılarından, milli özünüdərkin və vətəndaş birliyinin mühüm amillərindən, dövlətçilik atributlarından olan «Azərbaycan dili» adı bərpa edildi. Siyasi qətiyyət və əzmlə dövlət səviyyəsində dil quruculuğu, dövlət dilinin inkişafı, tətbiqinin genişləndirilməsi yolunda fəaliyyət başlandı. Azərbaycan dili Heydər Əliyev tərəfindən beynəlxalq səviyyədə fəxrlə işlədilməyə başlandı, milli dilimizin, ictimai, inzibati, təhsil, elm sahəsində geniş tətbiqinə nail olundu.

Prezidentimizin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi» haqqında fərmanı, Azərbaycan respublikasında dövlət dili haqqında AR Qanunu əslində Möhtərəm Heydər Əliyevin 30 ildən çox apardığı dil siyasətinin qanunauyğun və məntiqi nəticəsi, təzahürüdür.

Heydər Əliyevin milli lider kimi mühüm xidmətlərindən biri də xalqımızın tarixi tərəqqi yolu, mənəvi dəyərləri, mədəni özəllikləri, bugünkü mənafeyi və inkişaf perspektivlərini əks etdirən azərbaycançılıq ideyası və məfkurəsini formalaşdırmasıdır. Azərbaycançılığı xüsusi məfkurə kimi təbliğ edən Möhtərəm Prezidentimiz bu anlayışın ideoloji əsaslarını təqdim etmişdir.

Azərbaycançılıq dünya azərbaycanlılarını birləşdirən, soydaşlarımızın mənəvi birliyini, Vətənə bağlılığını, mənafe və məqsəd ortaqlığını təmin edən milli ideyanın təcəssümüdür. Prezident Heydər Əliyevin xarici ölkələrə səfərlərində soydaşlarımızla görüşlərdə, hər il Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə çıxışlarında məhz azərbaycançılıq ideyası əsas milli-mənəvi dəyərlərdən biri kimi təbliğ olunur. Milli mənəvi birlik, ənənəvi dəyərlərə sadiqlik, həmvətənlərimizin tarixi yaddaşının qorunması kimi məsələlər Möhtərəm Prezidentimiz Heydər Əliyevin təşəbbüs və sərəncamı ilə 2001-ci ilin noyabrında Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında öz parlaq təcəssümünü tapdı. Bir çox ölkələrdən həmvətənlərimizin iştirak etdiyi həmin qurultayda Prezident Heydər Əliyevin proqram xarakterli çıxışı, dəyərli tövsiyələri milli-tarixi proseslərdə yeni mərhələnin başlanğıcını qoydu. Dövlət rəhbərimizin «Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti» də çoxəsrlik tarixi keçmişimizə konseptual qiymət verən, milli dəyərləri, mənəvi-əxlaqi meyarları müəyyənləşdirən, inkişaf perspektivlərini göstərən tarixi sənəddir. İctimai həyatımızın bütün sahələri üzrə prinsipial müddəalarla zəngin olan bu müraciət öz konseptual səciyyəsi ilə əslində hamımıza geniş fəaliyyət proqramı verdi.

Prezident Heydər Əliyevin təhsil siyasətinin təməl prinsiplərindən biri və bəlkə də başlıcası gənc nəslin təlim-tərbiyəsində milli-mənəvi dəyərlərin, milli mənlik şüurunun təlqin edilməsidir. Təhsil islahatlarında, yeni proqram və dərsliklərin hazırlanmasında Prezidentimizin qarşıya qoyduğu əsas tələb milli mənəviyyat, əxlaq, dünyagörüşü və təfəkkür tərzidir. Xüsusən respublikamızda fəaliyyət göstərən tədris rus dilində olan məktəblər üçün Azərbaycan dili, ədəbiyyat, tarix, coğrafiya kimi fənlər üzrə dərsliklərin milli mənəvi meyarlar baxımından hazırlanması Prezidentimiz tərəfindən təhsil işçilərimizə verilən əsas göstərişlərdəndir.

Son dövrdə azərbaycanşünaslığın müstəqil elm sahəsi kimi inkişafa başlaması, artıq bu sahədə kadr hazırlığının (BSU) aparılması deyilənlərə bariz nümunədir.

Azərbaycan tarixinin öyrənilməsi, ümumən tarixi yaddaşın qorunması, xalqımızın tarixinə aid yeni elmi əsərlərin, dərsliklərin yazılması da daim Heydər Əliyevin diqqət mərkəzində olan məsələlərdəndir. Eləcə də mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinə göstərdiyi daimi qayğı, bir çox görkəmli sənətkarlarımıza Prezident təqaüdünün verilməsi, əslində ümumən mədəniyytimizə verilən qiymətdir.



Azərbaycan mədəniyyətinin, mənəvi dünyamızın təcəssümü olan klassik abidələr və sənətkarlara sayğılı münasibət də Prezidentimizin fəaliyytinə xas keyfiyyətlərdəndir. Füzulinin 500, «Kitabi - Dədə Qorqud»un 1300 illiyinin beynəlxalq miqyasda qeyd edilməsi, görkəmli sənətkarlarımızın yubileylərinin dövlət səviyyəsində keçirilməsi böyük tərbiyəvi əhəmiyyəti olan tədbirlər sırasındadır. «Kitabi – Dədə Qoqud»da hifz olunmuş, bu gün də aktual olan milli-mənəvi dəyərlərin geniş təbliği, bu əzəmətli abidənin dünya miqyasında Azərbaycan gerçəkliklərini əks etdirən məxəz kimi təqdimi dövlət rəhbərimizin milli mənafelərimizə müdrik münasibətinin təzahürüdür.

Prezidentimizin milli təəssübkeşliyi insanlarımızın ictimai həyatında, məişətində mənəvi-əxlaqi dəyərlərin qorunmasına yönəlmiş qətiyyətli addımlarında da aşkarlanır. Gənclərimizin fiziki və mənəvi baxımdan sağlam formalaşması, istedad və bacarığını gerçəkləşdirə bilməsi üçün münbit şərait və hər cür imkan yaradılmışdır. Təhsil sisteminin, mədəniyyət mərkəzlərinin, idman ocaqlarının inkişafı dövlət rəhbərinin gündəlik diqqət yetirdiyi məsələlərdəndir. Son illərdə Azərbaycan idmanının vüsətli tərəqqisi,müasir inflomasiya məkanının yaradılması, xüsusi istedadı olan uşaq və gənclərə qayğı Prezidentimizin xalqımızın gələcəyi yolunda atdığı addımlardandır.

Bu gün Azərbaycan xalqı Möhtərəm Prezidentimiz Heydər Əliyevin rəhbərliyi ilə inamla addımlayan, dinamik, dünyəvi dövlət quruculuğunu uğurla həyata keçirən, öz zəngin mədəniyyəti, milli siması, minilliklərin sınağından çıxmış mənəvi-əxlaqi meyarları ilə dünya xalqları arasında layiqli yer tutan yetkin xalqlardandır. Möhtərəm Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində sabahımızın daha nurlu olacağına inanırıq.